**AZƏRBAYCAN RESPUBLİKASI**

***Əlyazması hüququnda***

# AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5310.01 – Dünya iqtisadiyyatı

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Nigar Eldar qızı Talıbova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edlmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Bakı Dövlət Universitetinin “Dünya iqtisadiyyatı” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad üzrə fəlsəfə doktoru, dosent,
**Fərid Fikrət oğlu Babayev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Fuad Əlinağı oğlu Qənbərov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Emin Adil oğlu Qəribli**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Arzu Əli qızı Hacıyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən BFD 2.46 Birdəfəlik dissertasiya şurası.

Birdəfəlik dissertasiya şurasının sədri:

__________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Birdəfəlik dissertasiya şurasının elmi katibi:

__________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri:

__________ iqtisad elmləri doktoru, professor
**İrşad Abdul oğlu Kərimov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Hər bir ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi və gücləndirilməsi məsələləri strateji əhəmiyyət kəsb edir. Dünya iqtisadiyyatının inkişaf proseslərində baş verən transformasiyalar, yeni trendlər və fəaliyyət mexanizmləri, beynəlxalq iqtisadi məkandakı proseslər iqtisadi təhlükəsizliyə mütləq şəkildə öz təsirini göstərən amillərdəndir. Buna görə də beynəlxalq təcrübədən çıxış etsək, qeyd edə bilərik ki, dünya ölkələrinin əksəriyyətində özlərinin milli maraqları və regional əhəmiyyət kəsb edən məsələlər nəzərə alınmaqla, iqtisadi təhlükəsizlik strategiyaları formalaşdırılmış və dövlət siyasətinin əsas prioritetləri müəyyən edilmişdir.

Xarici ticarət siyasətinin formalaşdırılmasına və reallaşdırılmasına bilavasitə ölkənin iqtisadi təhlükəsizlik konsepsiyasının tərkib hissəsi kimi də baxılmalıdır. Məhz dünyanın digər ölkələri və beynəlxalq təşkilatlarla iqtisadi-siyasi əməkdaşlığın yüksək səviyyədə təşkil olunması, iqtisadi diplomatiyanın mümkün formalarından səmərəli istifadə edilməsi ilə son nəticədə xarici ticarət əlaqələrinin diversifikasiyalaşdırılması reallaşdırılmış olur. Hesab edirik ki, bu halda ölkənin xarici ticarət siyasətinin daha uğurlu həyata keçirilməsi mümkünləşər, digər tərəfdən xarici ticarət əlaqələrinin səmərəliliyi yüksələr. Xarici şirkət və firmalarla əməkdaşlığın genişləndirilməsi ölkəyə vacib olan yüksək texnologiyaların, maşın və avadanlıqların, mal və məhsulların gətirilməsinə əlverişli şərait yaradır. Eyni zamanda, xarici ticarət əlaqələrinin çoxşaxəli olması sayəsində dünya ölkələri və regionları, beynəlxalq institutlar və təşkilatlarla əlaqələrin genişləndirilməsi, müxtəlif beynəlxalq tədbirlərin, o cümlədən biznes-forumların, sərgilərin keçirilməsi ölkənin nüfuzunu və imicini artırır.

Azərbaycan keşmiş SSRİ-nin süqutu ilə əlaqədar olaraq, öz müstəqilliyini bərpa etdikdən sonra dövlət siyasətinin formalaşmasına, iqtisadi təhlükəsizlik konsepsiyasının əsas elementlərinin yaradılmasına başlamış və milli maraqlar əsas götürülməklə, iqtisadi təhlükəsizlik siyasəti təmin olunmuşdur. Ulu Öndər Heydər Əliyevin memarı olduğu "Neft strategiyası"nın işlənib hazırlanması, "Əsrin kontraktı"nın imzalanması sayəsində 1995-ci ildən başlayaraq sosial-

iqtisadi sabitlik təmin edilmiş, o cümlədən xarici ticarət əlaqələrinin bərpası və genişləndirilməsinə başlanılmışdır. Transkontinental enerji layihələrinin reallaşdırılması hesabına ölkəmiz regional lider dövlətə çevrilmiş, neft dollarından formalaşan valyuta ehtiyatlarından səmərəli istifadə etməklə, xarici ticarət fəaliyyətini gücləndirmiş və bütövlükdə xarici ticarət əlaqələrinin səmərəliliyinə nail olmuşdur.

Son onilliklərdə ölkəmizdə çoxşaxəli və effektverici iqtisadi islahatlar keçirilmiş, milli iqtisadiyyatın neftdən asılılğının azaldılması istiqamətində qanunvericilik bazası təkmilləşdrilmiş, qeyri-neftqaz sektorunun prioritetliyi maksimum həddə çatdırılmış, xüsusilə ixracyönlü sahələrin inkişafı ön plana çıxarılmışdır. Ölkənin xarici ticarət dövriyyəsi əhəmiyyətli səviyyədə artmış və qeyri-neftqaz ixrac məhsullarının ümumi ixracın strukturunda payı yüksəlmiş, çeşidi genişlənmişdir. Azərbaycan hazırda 165-dən çox ölkə ilə xarici ticarət əlaqələrinə malikdir, düzdür bu əlaqələrin əksəriyyəti neft və neft məhsulları ilə bağlıdır, amma əvvəldə qeyd etdiyimiz kimi tədricən qeyri-neftqaz məhsullarının ixracı artmaqdadır.

Ölkənin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı qəbul edilmiş konsepsiyada və qanunvericilik aktlarında bu istiqamətdə mühüm fəaliyyət sahələrindən biri kimi xarici ticarət əlaqələrin şaxələndirilməsi və onun səmərəliliyinin artırılması nəzərdə tutulur. Digər tərəfdən, Böyük Qarabağ Zəfərindən sonra işğaldan azad olunmuş ərazilərimizin bərpa edilməsi və dirçəldilməsi, Böyük Qayıdışın sürətləndirilməsi kontekstində, yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yüksək texnologiyalar, o cümlədən "ağıllı" texnologiyalar əsasında müasir istehsal infrastrukturunun formalaşdırılmasına və emal sənayesi müəssisələrinin yaradılmasına başlanılmışdır. Bunlar da öz növbəsində ölkəmizin xarici ticarət əlaqələrinin şaxələndirilməsi üçün yeni potensial mənbələr kimi baxılmalıdır.

Bunlarla bərabər, ölkə Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ində və yenə AR Prezidentinin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"nda prioritet fəaliyyət istiqamələri sırasında xarici ticarət

dövriyyəsinin strukturunun optimallaşdırılması, ilk növbədə ixrac potensialının diversifikasiyalaşdırılması, bütövlükdə ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi başlıca vəzifələr kimi baxılmışdır. Fikrimizcə, bu qeyd olunanlar ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin olunmasında önəmli rol oynamaqdadır.

Dünyanın bir neçə ölkəsində Azərbaycanın ticarət evlərinin yaradılmasına baxmayaraq, ölkəmizin firma və müəssisələrinin həmin qurumlarla birgə fəalyyətində daha məhsuldar mexanizmlərə zərurət qalmaqdadır. Bir çox ölkələrlə xarici ticarət əlaqələrinin yüksək potensialının olduğu halda, bu imkanlardan yetərincə istifadə olunmur. Zənnimizcə, Türkdilli dövlətlərlə xarici ticarət əlaqələrinin daha intensiv inkişaf etdirilməsi ölkəmizin və bütövlükdə Türkdilli dövlətlərinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsində yeni və səmərəli fəaliyyət istiqamətləri kimi qiymətləndrilməlidir. Bunlarla bərabər, ölkəmizdə dünya təcrübəsində özünü doğrutmuş çoxfunksiyalı iqtisadi fəaliyyət mexanizmləri və məkanları yaradılmaqdadır, bunlara misal olaraq texnoparklar, sənaye parkları, sənaye məhəllələri, azad iqtisadi zonalar, aqroparklar və s. göstərmək olar. Ancaq, bu qurumlarda qeydə alınan rezidentlərin sırasında xarici şirkət və firmaların sayı azdır, qeyri-neftqaz sahələrinə cəlb olunan xarici investisiyaların həcmi arzuolunan səviyyədə deyildir.

Hesab edirik ki, bu qeyd edilənlərin nəzərə alınması, dövlətimizin iqtisadi siyasətində, xarici ticarət və iqtisadi təhlükəsizlik konsepsiyasında dəyərləndirilməsi vacibdir və bunlarla əlaqədar olaraq daha dərin araşdırmalara, təkliflər hazırlamağa ehtiyac yaranmışdır. Bütün bunlar tədqiqat işinin aktuallığını göstərir və bunlarla bağlı fundamental tədqiqatların aparılmasını şərtləndirir. Bütövlükdə, bu amillər və şərtlər dissertasiya işinin mövzusunun aktuallığının ifadəsidir.

Dissertasiya işinin mövzusunun işlənmə dərəcəsi ilə əlaqədar olaraq qeyd edə bilərik ki, iqtisadi təhlükəsiliyin təmin edilməsi problemlərinin həlli, bu proseslərdə xarici ticarətin imkanlarından səmərəli istifadə edilməsi və bunlarl bağlı xarici ticarət əlaqələrinin şaxələndirilməsi, təkmilləşdirilməsi istiqamətlərində araşdırmalar aparılmış, fndamental elmi əsərlər yazılmış və nəzəri-metodoloji yanaşmalar formalaşdırılmış və fəaliyyət mexanizmləri

hazırlanmışdır. Azərbaycanlı alimlərdən – akademik Z.Ə.Səmədzadə, Ə.C.Muradov, A.Ş.Şəkərəliyev, Ə.B.Əliyev, İ.A.Kərimli, M.Y.Quliyev, F.Ə.Qənbərov, V.Ə.Qasımlı, M.M.Məmmədli, F.F.Babayev, H.H.Aslanov və başqalarının elmi əsərlərində bu göstərilən problemlərə baxılmışdır. Bunlarla bərabər, xarici tədqiqatçı-alimlərin ölkə iqtisadiyyatının inkişaf etdirilməsi, iqtisadi artımın və iqtisadi təhlükəsizliyin təmin olunması, bu istiqamətlərdə xarici ticarət əlaqələrinin rolu və əhəmiyyəti, səmərəliliyi ilə bağlı elmi əsərləri vardır. Bunlar öz əksini – A.Smit, A.Marşall, D.Rikardo, C.S.Mill, J.B.Say, P.A.Samuelson, P.R.Kruqman, J.E.Stiqlitz, R.M.Solou, V.Leontyev, R.Vernon, S.B.Lindert, L.İ.Abalkin, İ.S.Alekseyev, O.Y.Martınova, M.V.Safronçuk, R.İ.Xasbulatov və digərlərinin elmi əsərlərində tapmışdır.

Eyni zamanda, qeyd etmək istərdik ki, qlobal transformasiyalar kontekstində ölkənin iqtisadi təhlükəsizliyinin artırılması üçün daha təsirli mexanizmlərə ehtiyac vardır və bu baxımdan xarici ticarət əlaqələrinin genişləndirilməsinə mane olan halların aradan qaldırılması, ixracyönlü və idxaləvəzedici fəaliyyətin daha çox təşviq edilməsi, dəstəklənməsi tələb olunur. Dünyanın müxtəlif ölkələri ilə xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi, ehtiyatların üzə çıxarılması, regional və beynəlxalq prizmadan yanaşmaqla, müasir dövrün tələblərinə adekvat olan fəaliyyət mexanizmlərinin hazırlanmasına və tətbiqinə zərurət olduğundan bu istiqamətlərdə tədqiqatların genişləndirilməsi vacibdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti iqtisadi təhlükəsizliyin təmin edilməsində xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi proseslərini həyata keçirən subyektlər, təşkilatlar və müvafiq strukturlardır. Tədqiqatın predmeti isə müasir dövrdə Azərbaycan Respublikasında iqtisadi təhlükəsizliyinin təmin edilməsində xarici ticarət əlaqələrinin və bunlarla bağlı fəaliyyət mexanizmlərin təkmilləşdirilməsindən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin strukturuna müvafiq olaraq, dissertasiya işinin əsas məqsədi qlobal transformasiyalar şəraitində Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsində xarici ticarət əlaqələrinin təkmilləşdirilməsindən və müvafiq mexanizmlərin hazırlanmasından ibarətdir.

Bunlarla bağlı olaraq bir sıra vəzifələr müəyyənləşdirilimişdir:

- iqtisadi təhlükəsizliyin təmin edilməsində xarici ticarət əlaqələrin nəzəri aspektlərinin araşdırılması və ümumiləşdirilməsi;
- iqtisadi təhlükəsiliyin təmin olunmasında xarici ticarət əlaqələrin səmərəliliyinin yüksəldlməsi məqsədilə metodoloji yanaşmaların müəyyənləşdirilməsi;
- dünya ölkələrində iqtisadi təhlükəsizliyin gücləndirilməsində xarici ticarət əlaqələrindən səmərəli istifadə edilməsi üzrə müvafiq təcrübənin öyrənilməsi və tətbiqi imkanlarının baxılması;
- Azərbaycanın xarici ticarət əlaqələrinin mövcud vəziyyətinin təhlil olunması;
- təhlillər əsasında iqtisadi təhlükəsilik və xarici ticarət əlaqələrinin qarşılıqlı təsirinin qiymətləndirilməsinin aparılması;
- ölkənin iqtisadi təhlükəslik indikatorları əsasında xarici ticarət əlaqələrinin genişləndirilməsi üzrə potensialın müəyyənləşdirilməsi;
- iqtisadi təhlükəsizlik baxımından Azərbaycanın Türkdilli dövlətlərlə xarici ticarət əlaqələri və onların inkişaf etdirilməsi yollarının müəyyənləşdirilməsi;
- Azərbaycanda iqtisadi təhlükəsliyin təmin olunmasında xarici ticarət əlaqələrinin iqtisadi-təşkilati və hüquqi mexanizmlərinin tənzimlənməsi məsələlərinə baxılması;
- qlobal şəraitdə ölkəmizin iqtisadi təhlükəsliyinin yüksəldilməsində xarici ticarət əlaqələrinin rolunun artırılması üzrə konsepsiyanın hazırlanması;
- müasir dövrdə Azərbaycanın iqtisadi təhlükəsiliyinin modelləşdirilməsində xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi və bunlarla əlaqədar təkliflərin hazırlanması, tövsiyələrin verilməsi və s.

**Tədqiqat metodları.** Tədqiqat dövründə əsasən məlum elmi metodlardan, o cümlədən analiz, sintez, ümumiləşdirmə, müqayisə və s. metodlardan istifadə edilmişdir. Bundan əlavə, iqtisadi təhlükəsliyinin formalaşdırılması və təmin edilməsi, milli maraqlara uyğun iqtisadi təhlükəslik modelinin yaradılmasında xarici ticarət əlaqələrinin rolunun və səmərəliliyinin artırılması ilə bağlı müxtəlif

ölkə və dünya tədqiqatçılarının elmi əsərləri və metodoloji yanaşmaları da nəzərə alınmışdır.

Eyni zamanda, iqtisadi təhlükəsizliyinin gücləndirilməsi və bu proseslərdə xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi istiqamətlərində dövlət siyasətinin əsas prioritetlərindən, həmçinin qanun və normativ-hüquqi sənədlərdən, ölkə prezidentinin fərman və sərəncamlarından, ixtisaslaşdırılmış elmi-tədqiqat institutlarının metodoloji materiallarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** bunlardır:

1. Qloal təhdidlər artdıqca istisadi təhlükəsizliyin milli maraqlar çərçivəsində təmin edilməsində xarici ticarət əlaqələrinin rolunun gücləndirilməsinə və bununla bağlı mexanizmlərin təkmilləşdirilməsinə zərurət yaranıb;

2. Dövrün tələbləri nəzərə alınmaqla, iqtisadi təhlükəsizliyin gücləndirilməsi məqsədilə xarici ticarət əlaqələrinin genişləndirilməsi və bu əlaqələrin səmərəliliyinin artırılması üzrə mövcud metodoloji yanaşmaların yenilənməsi, daha üstün üslubların müəyyənləşdirilməsi vacibdir;

3. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında xarici ticarət əlaqələrinin rolundan məhsuldar istifadə edilməsində beynəlxalq təcrübənin araşdırılmasına, öyrənilməsinə, ümumiləşdirilməsinə və müvafiq nəticələrin çıxarılmasına ehtiyac duyulur;

4. Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin olunmasında xarici ticarət əlaqələrinin səmərəliliyinin artırılması üçün mövcud vəziyyətin kompleks təhlil edilməsi və qiymətləndirilməsi tələb olunur;

5. Ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə imkan verən müvafiq indikatorlardan yanaşmaqla, xarici ticarət əlaqələrinin diversifikasiyalaşdırılması potensialının araşdırılması və qiymətləndirilməsi faydalı ola bilər;

6. Müasir reallıqlardan baxmaqla, Türkdilli dövlətlərin iqtisadi təhlükəsizliyinin artırılmasında xarici ticarət əlaqələrinin genişləndirilməsi və daha səmərəli təşkil olunması mexanizmlərinin hazırlanmasına ciddi zərurət yaranmışdır;

7. Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin olunmasında xarici ticarət əlaqələrinin iqtisadi-təşkilati və hüquqi mexanizmlərinin

yeni şəraitə uyğun olaraq tənzimlənməsi qaçılmaz prosesdir;

8. Qlobal təsirlər şəraitində Azərbaycanın iqtisadi təhlükəsizliyinin gücləndirilməsində xarici ticarət əlaqələrinin rolunun yüksəldilməsinə dair Konsepsiyanın hazırlanmasına və ölkəmizin iqtisadi təhlükəsizliyinin modelləşdirilməsində xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsinə baxılmalıdır, bunlarla bağlı təklif və tövsiyələrin hazırlanması zəruridir.

**Tədqiqatın elmi yeniliyi bunlardan ibarətdir:**

– dünya iqtisadiyyatının inkişafı proseslərində xarici ticarət əlaqələrinin xüsusiyyətləri müəyyənləşdirilmiş, metodoloji xüsusiyyətlərin mahiyyətindən və məzmunundan yanaşmaqla, müasir dövrdə iqtisadi təhlükəsizliyin gücləndirilməsində xarici ticarət əlaqələrinin tənzimlənməsi və təkmilləşdirilməsi mexanizmləri və metodoloji prinsiplərinin blok-sxemi hazırlanmışdır;

– müasir dövrdə iqtisadi təhlükəsizliyin təmin edilməsi və gücləndirilməsi meyarları müəyyənləşdirilmiş, qlobal təhdidlər kontekstində ölkənin iqtisadi təhlküəsizlik göstəriciləri sisteminin əsas qrupları və indikatorlarının blok-sxemi verilmişdir;

– iqtisadi təhlükəsizlik göstəricilərinin qiymətləndirilməsi üzrə metodoloji yanaşmalar verilmiş, müasir qlobal iqtisadi transformasiyalar şəraitində ölkənin iqtisadi təhlükəsizliyi ilə bağlı milli strategiyanın reallaşdırılmasında əsas və əlavə göstəricilərin blok-sxemi hazırlanmışdır;

– qlobal problemlər və risklər şəraitində ölkənin iqtisadi təhlükəsizlik indikatorlarına uyğun şəkildə, xarici ticarət əlaqələrinin diversifikasiyalaşdırılması problemlərinin həlli yolları müəyyənləşdirilmiş və onların potensialının qiymətləndirilməsi mexanizmləri verilmişdir;

– hazırkı reallıqlardan yanaşmaqla, Azərbaycanın Türkdilli dövlətlərlə xarici ticarət əlaqələrinin ölkənin iqtisadi təhlüəsizlik sistemində rolunun artırılması istiqamətləri müəyyənləşdirilmişdir;

– Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyi kontekstində xarici ticarət fəaliyyətinin tənzimlənməsi üzrə mexanizmlərin, praktiki alətlərin və əsas prinsiplərin blok-sxemi hazırlanmışdır;

– qlobal təhlükələr və beynəlxalq ticarətin obyektiv reallıqları, inkişaf tendensiyaları nəzərə alınmaqla, Azərbaycanın xarici ticarət

əlaqələrin tənzimlənməsinin strateji istiqamətləri əsasalandırılmış və verilmişdir;

– Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri və prioritet hədəfləri üzrə Konsepsiyanın mühüm elementlərinin blok-sxemi hazırlanmışdır;

– qlobal çağırışlar və müasir reallıqlar əsas götürülməklə, Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin gücləndirilməsi və daha etibarlı şəkildə təmin edilməsi baxımından xarici ticarət əlaqələrinin maksimum təkmilləşdirilməsi və səmərəliliyinin artırılması istiqamətləri verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat nəticəsində alınmış elmi müddəalardan və təkliflərdən ölkənin iqtisadi təhlükəsizlik konsepsiyasının və ya strtaegiyasının hazırlanmasında, tədbirlərin görülməsində, bu proseslərdə xarici ticarət əlaqələrinin rolunun artırılmasında, analoji ticarət əlaqələrinin genişləndirilməsində istifadə oluna bilər. Eyni zamanda, tədqiqatda yer almış materiallardan dərsliklərin, dərs və metodiki vəsaitlərin yazılmasında, mühazirələrin hazırlanmasında istifadə etmək mümkündür.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu Bakı Dövlət Universitetinin elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğundur, aktual problem kimi universitetdə fəaliyyət göstərən seminarlarda müzakirə edilmiş və bəyənilmişdir.

Dissertasiya işinin mövzusuna dair iddiaçının 10 elmi əsəri, o cümlədən, 6 məqalə və 4 tezisi, onlardan 1 məqalə və 3 tezisi xaricdə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici elmi jurnallarda dərc olunmuşdur.

Tədqiqatın əsas müddəaları "Важнейшие аспекты внешнеторговых связей при моделировании экономической безопасности Азербайджана" (2023), "İqtisadi təhlükəsizliyin təminatında xarici ticarət əlaqələrinin rolu" (2024), "Перспективы повышение эффективности внешнеторговых связей в укреплении экономической безопасности страны" (2024), "Пути совершенствования внешнеторговых связей в повышении экономической безопасности Азербайджана в контексте новых вызовов" (Brussel, Belçika, 2024) adlı tezislərdə dərc olunmuşdur.

Bundan əlavə, iddiaçının “Xarici ticarət əlaqələrinin genişləndirilməsi və ölkənin iqtisadi təhlükəsizlik sistemində rolunun artırılması” (Audit jurnalı, 2023), “İqtisadi təhlükəsizliyin təminatında xarici ticarət əlaqələrinin nəzəri aspektləri” (Qərbi Kaspi jurnalı, 2023), “İqtisadi təhlükəsizliyin gücləndirilməsində xarici ticarət əlaqələrinin səmərəli təşkili üzrə beynəlxalq təcrübə” (“Geostrategiya” jurnalı, 2024), “Azərbaycanın xarici ticarət əlaqələrinin mövcud vəziyyəti” (“Tikintinin iqtisadiyyatı və menecment jurnalı”, 2024) və “Актуальные вопросы совершенствование внешнеторговых связей в усилении экономической безопасности Азербайджана” (Rusiya, Moskva, “Maliyyə iqtisadiyyatı” jurnalı, 2024) adlı məqalələri dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Bakı Dövlət Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Üz qabığı və mündəricat (1946 işarə), giriş (16874 işarə), I fəsil (64338 işarə), II fəsil (73261 işarə), III fəsil (63256 işarə), nəticə (14550 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (23179 işarə) üzrə ümumi həcm 266265 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər, istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 232279 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **girişi**ndə mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi və s. verilmişdir.

Dissertasiyanın **“İqtisadi təhlükəsizliyin təmin olunmasinda xarici ticarət əlaqələrinin təkmilləşdirilməsinin nəzəri-metodoloji əsasları”** adlı **birinci** fəslində iqtisadi təhlükəsizliyin təmin edilməsi proseslərində xarici ticarət əlaqələrinin rolu və nəzəri aspektləri, iqtisadi təhlükəsizliyin gücləndirilməsində xarici ticarət əlaqələrinin səmərəliliyin artırılmasına metodoloji yanaşmalar və dünya ölkələrində iqtisadi təhlükəsizliyin təmin olunmasında xarici ticarət əlaqələrinin genişləndirilməsi təcrübəsi araşdırılmışdır.

Müasir şəraitdə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi və bununla bağlı zəruri tədbirlərin görülməsi, bu istiqamətdə dövlət siyasətinin təkmilləşdirilməsi və tələb olunan mexanizmlərin işlənib hazırlanaraq tətbiq edilməsi vacib şərtlərdəndir. Belə ki, qlobal şəraitdə iqtisadi təhlükəsizlik məsələləri ön plana çıxmışdır və qlobal təziqlər səbəbindən hər bir ölkənin uzun illər ərzində dayanıqlılıq nümayiş etdirən iqtisadi təhlükəsizlik mexanizmi hazırkı dövrün tələblərinə cavab verməyə bilər. Bu baxımdan, iqtisadi təhlükəsizliyin gücləndirilməsi üçün onun bütün komponentlərindən səmərəli və məhsuldar istifadə edilməsi vacibdir.

Hesab edirik ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi istiqamətində çox mühüm əhəmiyyət kəsb edən fəaliyyət sahələrindən biri kimi xarici ticarət əlaqələrini fəqrləndirmək mümkündür: 1) xarici ticarət əlaqələrinin genişləndirilməsi və ölkənin milli maraqları səviyyəsində qurulması; 2) iqtisadi diplomatiya institutunun yaradılması; 3) xarici ticarət siyasətinin səmərəli təşkili və bununla əlaqədar davamlı tədbirlərin görülməsi; 4) qanunvericilik bazasının təkmilləşdirilməsi; 5) xarici ticarət fəaliyyətinin stimullaşdırılması və bütün bunlar son nəticədə xarici ticarət əlaqələrindən səmərəli istifadə etməyə imkan verə bilən amillərdəndir. Digər tərəfdən, xarici ticarət əlaqələri ölkənin regional və beynəlxalq səviyyədə imicinin artırılmasına, rəqabət qabiliyyətinin yüksəldilməsinə, ölkənin tələbatı ilə bağlı texnologiyaların daha sərfəli şərtlərlə idxalına imkan verir.

Xarici ticarətin təşkili və inkişaf etdirilməsinə nəzəri yanaşmaların tədqiqi baxımından qeyd edə bilərik ki, xarici ticarətin formalaşması və inkişaf etdirilməsi ilə bağlı problemlər klassik iqtisadi məktəbin nümayəndələrindən başlamış müasir dövrümüzə qədər iqtisadçı alimlərin diqqət mərkəzində olmuşdur. A.Smitdən yanaşsaq, o qeyd edirdi ki, ölkədə işsizlik yaranmasın deyə xarici ticarətin liberallaşdırılması tədricən baş verməlidir. Xarici ticarətin vergitutmasına XTS-nin aləti və milli iqtisadiyyatın tənzimləyicisi kimi deyil, daha çox iqtisadiyyatın bu sektorunun himayədarlığı ilə bağlı xərclərin ödənilməsi üçün dövlət xəzinəsinin doldurulması mexanizmi kimi baxılırdı. A. Smitə görə: *"Ölkələr xarici ticarətin sərbəst inkişafında maraqlıdırlar. Çünki onlar xarici ticarətin*

*inkişafından asılı olmayaraq bundan faydalana bilərlər"*[1]. Bunlarla bərabər, A.Smit qeyd edir ki, çoxsəviyyəli ticarət ölkəyə daha az fayda verir, çünki belə fəaliyyətlər əhəmiyyətli vaxt tələb edir və ticarət əməliyyatlarını reallaşdırarkən ən aşağı kapital dövriyyəsi və ən böyük risk ilə xarakterizə olunur. Qeyd edək ki, müqayisəli üstünlüklər nəzəriyyəsinin mühüm metodoloji əsasları mütləq üstünlük nəzəriyyəsi ilə eynidir. Halbuki təcrübədə ticarət əlaqələri belə sərt sərhədləri aşır. Xüsusilə, müqayisəli üstünlüklər nəzəriyyəsi ixrac və idxalın şaxələndirilməsi imkanlarını nəzərə almır, onun bəzi fərziyyələrini zəiflədən çoxsaylı genişlənmələrə malikdir[2]. Xarici ticarətin inkişafında D.Rikardo nəzəriyyəsindən sonra digər əsas istiqamət istehsal amilləri arasındakı əlaqə nəzəriyyəsi idi ki, onun əsaslarını E.Hekşer və Nobel mükafatçısı B.Olin formalaşdırmışdır[3] [4]. Bu nəzəriyyə bir ölkədə istehsal amillərinin qiymətinin bilavasitə onların artıqlığı ilə müəyyən edildiyi və nəticədə istehsalında artıq və nisbətən ucuz istehsal amillərinin üstünlük təşkil etdiyi malların nisbətən ucuz olacağı ehtimalına əsaslanır. Bu halda ölkələr özlərində bol olan istehsal amillərindən istifadə olunmuş əmtəələri ixrac edir və az olanları isə idxal edirlər.

Bunlarla bərabər, istehsal amilləri nəzəriyyəsi müqayisəli üstünlüklər nəzəriyyəsinin çatışmazlıqlarından yan keçməyə müvəffəq olmuşdur. Nobel mükafatçısı V.Leontyevin xarici ticarətlə bağlı baxışları da maraq doğurur. O, 1953-cü ildə ABŞ-ın xarici ticarətinə dair işində göstərdi ki, kapitalın nisbi ucuzluğuna baxmayaraq, onların ixracında kapital tutumlu malların payı azalır, əmək tutumlu mallar isə əksinə, artmaqdadır. Bu tədqiqatın nəticələri "Leontyev paradoksu" adlanır[5].

---

[1] Смит, А. Исследование о природе и причинах богатства народов. Издательская группа ЭКСМО, – 2019. – 1056 с. - s. 516.

[2] Ricardo, D. On the Principles of Political Economy and Taxation, 1817. Batoche Books, Kitchener, Ontario. –2001, – 333 p. - s. 142.

[3] Heckscher, E. International Trade, and Economic History, Findlay, Ronald, Rolf G. H. Henriksson, Håkan Lindgren and Mats Lundahl, eds., The MIT Press, 2007. – 560 p. - s. 147-149.

[4] Ohlin, B. Interregional and International Trade. Harvard EconomisStudies. 1967. – 324 p. - s. 98.

[5] Leontief, W. Domestic production and foreign trade; the American capital position re-examined. Economia internazionale. - Genova: Inst., -Vol. 7.–1954, 1, p. 9-45. - s. 18.

Azərbaycanlı tədqiqatçı alimlərin əsərlərində də iqtisadi təhlükəsizliyin gücləndirilməsi proseslərində xarici ticarət əlaqələrinin diversifikasiyalaşdırılması, bu əlaqələrin təkmilləşdirilməsi və inkişaf etdirilməsi problemlərinə toxunulmuşdur. Ümumən bu fikri fərqləndirə bilərik ki, Azərbaycanın xarici ticarətində əsas prioritet ixrac potensialının artırılması və idxaləvəzedici sahələrin intensiv inkişafının təmin olunmasıdır. Buna görə də qeyri-neftqaz sektorunun prioritetliyindən yanaşmaqla, ayrı-ayrı iqtisadiyyat sahələrinin potensialından səmərəli istifadə edilməsinə ciddi zərurət vardır. Akademik Ziyad Səmədzadə qeyd edir ki, *"Qeyri-neft məhsulları ixracının təşviqi istiqamətində həyata keçirilən tədbirlər sahibkarların öz məhsullarını ixrac etmək marağını artırıb. İxracın genişləndirilməsi, rəqabətqabiliyyətli məhsulların ənənəvi və yeni bazarlara çıxışının artırılması ilə bağlı imzalanmış sənədlər iş adamlarına geniş imkanlar yaratmışdır"*[6]. Hesab edirik ki, bu qeyd olunan yanaşmalar hazırda ölkəmizin xarici ticarət siyasətinin və xarici ticarət əlaqələrinin mühüm tərkib komponentləridir. Professor A.Ş.Şəkərəliyev isə xarici ticarət əlaqələrinin genişləndirilməsinə xüsusi önəm verir və bilidirir ki: *"Ölkənin ixrac potensialının düzgün qiymətləndirilməsi və onun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, idxalın obyektiv tələbat həcminin tapılması, iqtisadi təhlükəsizlik konsepsiyasının hazırlanması və reallaşdırılması istiqamətlərində ardıcıl iş aparılmalıdır"*[7]. Bu məsələdə professorla həmrəy olmaqla bərabər, hesab edirik ki, işğaldan azad olunmuş torpaqlarımızın dirçəldilməsi və bu ərazilərdə iqtisadiyyat quruculuğu hədəflərindən yanaşmaqla, ölkəmizin təkmilləşdirilmiş iqtisadi təhlükəsizlik konsepsiyası və xarici ticarət strategiyası işlənilməlidir. Professor Ş.T.Əliyev xarici ticarət əlaqələrinin tənzimlənməsində dövlətin ən mühüm funksiyalarına milli maraqların və milli iqtisadi maraqların qorunmasını özündə ehtiva edən xarici ticarət əlaqələrinin konsepsiyasının hazırlanması və həyata keçirilməsini, xarici ticarət və xarici iqtisadi əlaqələr üzrə dövlət siyasətinin

---

[6] Səmədzadə, Z.Ə. Azərbaycan iqtisadiyyatı 100 ildə: 4 cild/ Z. Səmədzadə; [baş red. A. Səmədzadə; red. Y. Məmmədova]. Bakı: Kitab Çapı, 2022. - s. 323.

[7] Şəkərəliyev, A., Şəkərəliyev, Q. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. – Bakı: Turxan, NPB, – 2016. - s. 191.

təkmilləşdirilməsini aid etmişdir[8]. Biz də hesab edirik ki, bu tədbirlərin həyata keçirilməsi və maksimum səmərəli tənzimləyici mexanizmlərin hazırlanaraq tətbiq edilməsi ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin edilməsində xarici ticarət əlaqələrinin rolunun artmasına gətirib çıxarar.

Dünya iqtisadiyyatının inkişafı prosesində XTƏ-lər hüquqi, ticarət-iqtisadi, pul-kredit, maliyyə-mühasibat və iqtisadi xarakter daşıyan mürəkkəb münasibətlər sisteminə çevrilmişdir. XTƏ-lər xarakterik xüsusiyyətlərə malikdir və bunlar öz əksini cədvəl 1-də tapmışdır.

**Cədvəl 1**

**Xarici ticarət əlaqələrinin xarakterik xüsusiyyətləri**

| Əlaməti | Mahiyyəti |
|---|---|
| Beynəlxalq əmək bölgüsü və mübadilə | - XTƏ-lərin əsaslarını təşkil edir;<br>- ayrı-ayrı ölkələrin istehsalı və istehlakı müəyyən dərəcədə bir-biri ilə bağlıdır.<br>- tələb, təklif və sərbəst qiymət qanunlarına uyğun olaraq reallaşdırılır;<br>- pulun hərəkəti və hesablaşma sistemi ilə vasitəçilik edir. |
| Yüksək rəqabət səviyyəsi | - dünya bazarında mallar, satıcılar və alıcılar arasında rəqabət yaranır;<br>- bazarda dövriyyədə olan malların həcmi və sayı çox olduğundan belə rəqabət daha sərt olur. |
| Beynəlxalq, regional və milli səviyyədə dövlətin müdaxiləsi və tənzimlənməsi | - dövlətlərarası, iqtisadi, ticarət və gömrük müqavilələrində təzahür edir. |

***Mənbə:*** *müəllif tərəfindən tərtib edilib.*

XTƏ-lərin dövlət tənzimlənməsi dedikdə, bir qayda olaraq, ölkənin digər ölkələrlə ticarət əlaqələrinin formalaşmasına və tənzimlənməsinə yönəlmiş fəaliyyəti başa düşülür[9].

Metodoloji xüsusiyyətlərin mahiyyətindən və məzmunundan yanaşmaqla, müasir dövrdə iqtisadi təhlükəsisliyin gücləndirilməsində

---

[8] Əliyev, Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, – 2018. - s. 344.

[9] Губкина, М.С. Внешнеторговая политика страны и ее регулирование / М.С. Губкина, В.В. Климова // Наука и образование транспорту. – 2020. № 1. - s.231.

xarici ticarət əlaqələrinin tənzimlənməsi və təkmilləşdirilməsi mexanizmləri və metodoloji prinsiplərin blok-sxemi şəkil 1-də vermişik.

**Metodoloji xüsusiyyətlərin mahiyyətindən və məzmunundan yanaşmaqla, müasir dövrdə iqtisadi təhlükəsisliyin gücləndirilməsində xarici ticarət əlaqələrinin tənzimlənməsi və təkmilləşdirilməsi mexanizmləri və metodoloji prinsiplər**

Mexanizmlər

- XTƏ-lərin tənzimlənməsi üçün hüquqi bazanın təkmilləşdirilməsi
- malların ixracının inkişafı üçün maksimum səmərəli proqramların yaradılması
- ölkədə XTƏ-lərin idarə edilməsinin təkmilləşdirilməsi
- məhsul ixracının kredit əlçatanlığının təmin olunması
- sığorta təminatı üzrə əlverişli mexanizmlərin tətbiqi
- dövlətlərarası bank fəaliyyətinin səmərəli təşkili
- ixrac-idxal daşımalarına olan tələbatı ödəmək qabiliyyətinə malik nəqliyyat infrastrukturunun yaradılması
- idxalın tarif tənzimlənməsi və vergi ödənişləri sisteminin təkmilləşdirilməsi
- ölkəyə daxil olan malların keyfiyyətinə və təhlükəsizliyinə effektiv nəzarətin reallaşdırılması və s.

Metodoloji prinsiplər

- XTƏ-lərin iqtisadi təhlükəsizliyin təminatında roluna prioritet yanaşmaların təmin edilməsi
- İqtisadi təhlükəsizlik amilinə yanaşmalarda prinsipiallığın qorunması
- XTƏ-lər üzrə dövlət siyasətində milli maraqların qorunması
- Ölkənin BƏB-də ixtisaslaşmasının prioritetliyi
- XTS-də ölkələrarası maraqların nəzərə alınmasının mütləq şərt kimi qiymətləndirilməsi
- Dövlətin xarici ticarət siyasətinin optimallığı
- Xarici ticarət dövriyyəsinin strukturunun balanslaşdırılması və müsbət saldonun qorunmasının ön plana çəkilməsi
- İxrac potensialının artırılmasına sistemli yanaşmalar və maksimum effektiv stimullaşdırıcı mexanizmlərin tətbiq edilməsi
- XTƏ-lərdə şəffaflığın təmin edilməsi və s.

**Şəkil 1. Metodoloji xüsusiyyətlərin mahiyyətindən və məzmunundan yanaşmaqla, müasir dövrdə iqtisadi təhlükəsisliyin gücləndirilməsində xarici ticarət əlaqələrinin tənzimlənməsi və təkmilləşdirilməsi mexanizmləri və metodoloji prinsiplərin blok-sxemi**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Bunlarla bərabər, XTƏ-lərin təhlükəsizliyini təmin etmək üçün elmi əsaslı sistem formalaşdırmaq lazımdır. Bu sistem XTƏ-lərin dövlət tənzimlənməsi siyasətinin müəyyənləşdirilməsi üçün ayrılmaz fundamental əsas olmalıdır və iki amillə daha çox bağlıdır: 1) Birinci

amil beynəlxalq ziddiyyətlərin, qlobal proteksionizmin və genişmiqyaslı ticarət mübarizələrinin artması tendensiyasıdır. 2) İkinci amil ixracın xammal yönümünün artması, maşın, avadanlıq və nəqliyyat vasitələrinin idxalının artmasıdır[10].

Dünya ölkələrində iqtisadi təhlükəsizliyin gücləndirilməsi, bununla bağlı sistemli tədbirlərin görülməsi, iqtisadi təhlükəsizliyin müxtəlif indikatorlarının formalaşdırılması, onların meyarlarının hazırlanması və dövlət səviyyəsində onların tənzimlənməsi istiqamətində kifayət qədər təcrübə diqqət çəkir. Dünya ölkələrində iqtisadi təhlükəsizliyin təmin edilməsində xarici ticarət əlaqələrinin rolundan geniş istifadə olunur. Məsələn, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə çox mühüm bir tendensiyanı görmək olar. Burada heç də xarici ticarətdə ixracın potensialı həmişə əsas önəm kəsb etmir. ABŞ dünyanın bütün ölkələrindən, xüsusilə iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrdən kifayət qədər iri həcmdə resurslar idxal etməklə özünün müxtəlif iqtisadiyyat sahələri üçün xammal bazası formalaşdırır və ucuz xammaldan yüksək texnologiyalar əsasında ixracyönümlü, elm və texnologiyatutumlu məhsullar istehsal etməklə, dünya bazarında çox güclü ixrac potensialı formalaşdırır və reallaşdırırır. Nəticədə daha çox gəlir əldə edir. Çində iqtisadiyyatın müxtəlif sahələri üzrə ixtisaslaşmış xarici ticarət qurumları mövcuddur, bu istiqamətlərdə korporasiyaların, şirkətlərin yaradılması praktikası da geniş yayılmışdır. Avropa Birliyi ölkələrində, Avropanın aparıcı dövlətləri olan Almaniya və Fransada yüksək texnologiyalar, xüsusilə maşın və mexanizmlərin, daha çox elm və texnologiyalar, həm də maliyyətutumlu sahələrin inkişaf etdirilməsi hesabına ixracın genişləndirilməsi təmin olunur. XTƏ-lərdə Çində ən çox rast gəlinən texniki maneələr milli standartlara uyğunluq, idxal olunan məhsullar üçün keyfiyyət sertifikatlarının alınması, malların xüsusi qablaşdırılması və etiketlənməsi, müəyyən sanitar-gigiyenik normalara uyğunluq və mürəkkəb gömrük rəsmiləşdirmələrinin reallaşdırılması tələbləridir. Kəmiyyət üsullarına kvotalar, lisenziyalaşdırma, həmçinin əsasən xammal və kənd təsərrüfatı

---

[10] Пак, А.Ю. Внешнеторговая безопасность и система ее обеспечения как особенный элемент экономической безопасности государства / А.Ю. Пак // Вестник Российского университета дружбы народов. Серия: Экономика. – 2020. – Т. 28, № 3, – s.601.

mallarının idxalına və ixracına qadağa daxildir. Bu qeyd olunanlardan yanaşmaqla, dünya ölkələrinin təcrübəsindən çıxış etməklə, Azərbaycanın XTƏ-lərinin inkişafı üçün bir qrup tədbirlərin vacibliyini və fəaliyyət istiqamətlərini təklif edirik: 1) ixraca dəstək institutlarının fəaliyyətinin səmərəliliyinin maksimum artırılması tədbirlərinə ehtiyac vardır; 2) elmi-tədqiqat və müasir texnoloji istehsal proseslərindən istifadə edən ixracyönümlü şirkətlər üçün məqsədyönlü subsidiyaların və ya digər maliyyələşdirmə üsullarının tətbiqinə zərurət qalmaqdadır; 3) postkonflikt ərazilərdə mövcud resurs potensialından səmərəli istifadə edilməsi və milli brendlərin yaradılması, rəqabətqabiliyyətli ixracyönlü və idxal əvəzedici məhsulların istehsalının təşkili layihələri reallaşdırılmalıdır və s.

İşin **"Azərbaycanda iqtisadi təhlükəsizlik kontekstində xarici ticarət əlaqələrinin təhlili və qiymətləndirilməsi"** adlı **ikinci fəslində** Azərbaycanın xarici ticarət əlaqələrinin mövcud vəziyyətinin təhlili, iqtisadi təhlükəsizlik və xarici ticarət əlaqələrinin qarşılıqlı təsirinin qiymətləndirilməsi, ölkənin iqtisadi təhlükəsizlik indikatorlarına uyğun olaraq xarici ticarət əlaqlərinin diversifikasiyalaşdırılması potensialının qiymətləndirilməsi və iqtisadi təhlükəsizlik baxımından Azərbaycanın Türkdilli dövlətlərlə xarici ticarət əlaqələri və onların inkişaf etdirilməsi yolları tədqiq olunmuşdur.

Müasir dünyada XTƏ-lərin qloballaşma prosesləri ilə paralel olaraq sürətli inkişafı əsas şərtlərdəndir[11]. Ölkəmizin xarici ticarət əlaqələrinin mövcud vəziyyətinin təhlili ilə bağlı bir sıra məqamlara diqqət yetirmək istərdik.

Cədvəl 2-də Azərbaycanın xarici ticarət dövriyəsinin ümumi dinamikası və MDB, həmçinin digər ölkələrin ümumi xarici ticarət dövriyyəsində xüsusi payı təhlil olunmuşdur.

Cədvəl 2-dən yanaşsaq, qeyd edə bilərik ki, ümumi xarici ticarət dövriyyəsində MDB ölkələrinin payı 2014-cü ildə 9,4%-dən 2024-cü ildə 14,5%-ə qədər artmış, digər ölkələrin payı isə nisbətən azalmışdır. İdxalda MDB ölkələrinin payı 2022-ci ildə 30,4% olduğu halda, 2024-cü ildə 24,1%, ixracda isə 4,3%-dən 8,3%-ə yüksəlmişdir.

[11] Rəhimova, A. Ölkənin xarici ticarət əlaqələrinin mövcud vəziyyəti və perspektiv inkişaf istiqamətləri. İpək yolu, – 2018. №.1, – s.119-128. - s.119.

**Cədvəl 2**

**Azərbaycanın xarici ticarət dövriyyəsinin ümumi göstəriciləri, 2014-2024-cü illər**

| İllər | Dövriyyə | | | İdxal | | | İxrac | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi, mln. ABŞ dollar | MDB payı, % | Digər ölkələr, payı, % | Cəmi, mln. ABŞ dollar | MDB payı, % | Digər ölkələr, payı, % | Cəmi, mln. ABŞ dollar | MDB payı, % | Digər ölkələr, payı, % |
| 2014 | 31016,3 | 9,4 | 90,6 | 9187,7 | 22,7 | 77,3 | 21828,6 | 3,8 | 96,2 |
| 2015 | 21945,8 | 11,3 | 88,7 | 9216,7 | 21,3 | 78,7 | 12729,1 | 4,1 | 95,9 |
| 2016 | 21946,7 | 12,9 | 87,1 | 8489,1 | 25,4 | 74,6 | 13457,6 | 4,9 | 95,1 |
| 2017 | 24103,3 | 14,6 | 85,4 | 8783,3 | 27,3 | 72,7 | 15320,0 | 7,4 | 92,6 |
| 2018 | 30955,0 | 12,9 | 87,1 | 11465,9 | 25,0 | 75,0 | 19489,1 | 5,8 | 94,2 |
| 2019 | 33302,7 | 13,8 | 86,2 | 13667,5 | 25,1 | 74,9 | 19635,2 | 6,0 | 94,0 |
| 2020 | 24203,5 | 17,3 | 82,7 | 10732,0 | 26,1 | 73,9 | 13 471,5 | 9,5 | 90,5 |
| 2021 | 35636,8 | 13,9 | 86,1 | 11703,2 | 25,0 | 75,0 | 23933,6 | 8,1 | 91,9 |
| 2022 | 56212,1 | 11,5 | 88,5 | 14539,9 | 30,4 | 69,6 | 41672,2 | 4,3 | 95,7 |
| 2023 | 51183,9 | 12,8 | 87,2 | 17285,3 | 24,8 | 75,2 | 33898,6 | 6,7 | 93,3 |
| 2024 | 47612,1 | 14,5 | 85,5 | 21058,0 | 24,1 | 75,9 | 26554,1 | 8,3 | 91,7 |

*Mənbə:* https://www.stat.gov.az/

2021–2022-ci illərdə ixracın həcminin iki dəfə yüksəlməsi əsas etibarı ilə neft-qaz məhsullarının ixracının, həmçinin dünya bazarında qiymətlərinin artması ilə əlaqəli olmuşdur.

Cədvəl 3-də Azərbaycanın Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə ixracın quruluşu əks olunmuşdur. Buradan görünür ki, 2010–2024-cü illərdə ixracın həcmi 24,3% artmışdır. İxracın strukturunda əsas yeri son illərdə olduğu kimi mineral yanacaq məhsulları tutmuşdur (2024-cü ildə 88,5%). Təəssüf ki, qeyri-neftqaz iqtisadiyyat sahələrinin ixrac potensialından yetərində istifadə edilmədiyi qənaəti daha çox ön plana çıxır.

Cədvəl 4-də Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə idxalın quruluşu verilmişdir və qeyd etmək lazımdır ki, 2010–2024-cü illərdə idxalın həcmi 3,2 dəfə artmışdır, deməli ölkəmizdən valyuta axını da bir o qədər yüksəlmişdir. Hesab edirik ki, bir sıra mal nomenklaturası üzrə idxal əvəzedici sahələrin inkişaf etdirilməsinə ciddi zərurət vardır. Xüsusilə, bir çox ərzaq məhsullarının və kimyəvi malların ölkəmizdə istehsal infrastrukturunun genişləndirilməsi imkanlarını qeyd edə bilərik.

**Cədvəl 3.**

**Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə ixracın quruluşu, mln. ABŞ doll.**

| Məhsul bölmələri | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | 21360,2 | 12729,1 | 13457,6 | 15320,0 | 19489,1 | 19635,2 | 13732,6 | 22208,0 | 38146,6 | 33898,6 | 26554,1 |
| **o cümlədən:** | | | | | | | | | | | |
| Yeyinti məhsulları və diri heyvanlar | 415,1 | 625,1 | 478,2 | 601,4 | 650,4 | 709,6 | 704,2 | 744,0 | 812,2 | 876,5 | 920,0 |
| İçkilər və tütün | 22,0 | 35,2 | 27,6 | 37,2 | 29,8 | 39,0 | 26,7 | 30,6 | 56,2 | 61,3 | 58,7 |
| Qeyri-ərzaq xammalı (yanacaqdan başqa) | 22,9 | 25,7 | 45,2 | 79,0 | 125,2 | 171,6 | 178,3 | 270,2 | 247,8 | 235,4 | 218,9 |
| Mineral yanacaq, sürtkü yağları, analoji materiallar | 20110,1 | 11187,1 | 12270,2 | 13867,1 | 17878,6 | 17800,2 | 11981,3 | 19635,0 | 35300,2 | 30698,2 | 23491,0 |
| Heyvan və bitki mənşəli yağlar, piylər və mumlar | 154,9 | 105,5 | 14,2 | 14,5 | 14,0 | 14,8 | 20,5 | 27,9 | 26,6 | 28,1 | 29,4 |
| Kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən analoji məhsullar | 130,2 | 190,2 | 153,2 | 178,8 | 194,7 | 279,5 | 246,2 | 682,0 | 767,0 | 745,8 | 698,3 |
| Əsasən materialın növünə görə təsnifləşdirilən sənaye malları | 170,8 | 179,8 | 273,7 | 323,4 | 338,2 | 324,7 | 283,7 | 517,5 | 554,2 | 532,6 | 501,4 |
| Maşınlar və nəqliyyat avadanlıqları | 217,8 | 208,7 | 103,3 | 60,0 | 83,1 | 90,0 | 74,0 | 62,0 | 161,4 | 145,8 | 132,6 |
| Müxtəlif hazır məmulatlar | 34,6 | 88,9 | 15,3 | 19,3 | 29,6 | 33,4 | 21,7 | 35,5 | 35,4 | 38,2 | 41,1 |
| Digər kateqoriyalara daxil edilməyən mallar | 81,8 | 82,8 | 76,8 | 139,4 | 145,5 | 172,3 | 195,9 | 203,4 | 185,6 | 175,5 | 163,7 |

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

**Cədvəl 4.**

## Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə idxalın quruluşu, mln. ABŞ dolları

| Məhsul bölmələri | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | 6600,6 | 9216,7 | 8489,1 | 8783,3 | 11465,9 | 13667,5 | 10732,0 | 11703,2 | 14539,9 | 17285,3 | 21058,0 |
| **o cümlədən:** | | | | | | | | | | | |
| Yeyinti məhsulları və diri heyvanlar | 864,1 | 910,5 | 1189,8 | 1282,7 | 1 270,9 | 1 558,0 | 1 553,8 | 1 767,6 | 2 161,1 | 2398,4 | 2685,6 |
| İçkilər və tütün | 264,8 | 360,0 | 210,0 | 231,8 | 250,3 | 182,6 | 143,7 | 170,4 | 174,2 | 189,3 | 201,4 |
| Qeyri-ərzaq xammalı (yanacaqdan başqa) | 178,2 | 211,9 | 187,4 | 231,1 | 313,6 | 362,1 | 271,9 | 324,9 | 401,5 | 425,7 | 448,2 |
| Mineral yanacaq, sürtkü yağları, analoji materiallar | 73,6 | 150,1 | 282,7 | 378,8 | 723,7 | 827,3 | 280,3 | 533,2 | 1 375,2 | 1458,9 | 1523,6 |
| Heyvan və bitki mənşəli yağlar, piylər | 85,0 | 71,6 | 127,8 | 125,2 | 114,0 | 115,5 | 137,9 | 203,3 | 252,8 | 267,4 | 281,0 |
| Kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən analoji məhsullar | 586,4 | 838,3 | 895,5 | 1040,1 | 1 192,8 | 1 313,4 | 1 347,7 | 1 322,0 | 1 797,8 | 1945,6 | 2087,3 |
| Əsasən materialın növünə görə təsnifləşdirilən sənaye malları | 1425,1 | 2362,3 | 1864,2 | 1684,7 | 2 173,8 | 2 140,6 | 2 002,3 | 2 090,6 | 2 458,5 | 2612,4 | 2756,8 |
| Maşınlar və nəqliyyat avadanlıqları | 2 680,5 | 3 677,6 | 2 805,3 | 2 933,3 | 3 481,5 | 3 876,2 | 4 034,0 | 3 738,8 | 4 490,3 | 5501,2 | 6824,5 |
| Müxtəlif hazır məmulatlar | 434,0 | 631,3 | 909,8 | 860,0 | 1 124,7 | 1 161,7 | 959,6 | 1 391,7 | 1 391,9 | 1458,3 | 1524,6 |
| Digər kateqoriyalara daxil edilməyən mallar | 8,8 | 3,0 | 16,8 | 15,5 | 820,6 | 2 130,0 | 0,9 | 160,8 | 36,6 | 28,1 | 24,1 |

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Ölkənin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi üçün həm də mühüm əhəmiyyət kəsb edən sənaye və kənd təsərrüfatının inkişafının təmin edilməsi vacibdir və hər iki sahənin inkişafında ixracın reallaşdırılması, səmərəli idxal, yəni bütövlükdə xarici ticarət dövriyyəsinin, xarici ticarət əlaqələrinin fayda verməsi olduqca vacibdir və bununla əlaqədar olaraq çoxsaylı problemlərin həllində məhz xarici ölkələrlə əlaqələr olduqca mühüm funksiyaları yerinə yetirir. Akademik L.A.Abalkinə görə: *"geniş mənada "iqtisadi təhlükəsizlik" kateqoriyası milli iqtisadiyyatın müstəqilliyini, onun dayanıqlığını, özünü təkmilləşdirmə və daim yenilənmə qabiliyyətini təmin edən şərait və amillərin məcmusudur"*[12]. Biz də bu fikirdəyik ki, iqtisadi təhlükəsizlik ölkənin iqtisadi suverenliyini, onun iqtisadi məkanının vəhdətini və dövlətin milli strateji prioritetlərinin reallaşdırılması üçün şəraiti təmin edən milli iqtisadiyyatın təhdidlərdən qorunması vəziyyətidir.

Fikrimizcə, ölkənin iqtisadi təhlükəsizliyin gücləndirilməsi üçün "İqtisadi təhlükəsizlik üzrə milli strategiya"nın hazırlanması proseslərində tərkib elementləri və strateji vəzifələr kimi aşağıdakılar daha çox prioritetlik təşkil etməlidir:

1) Dövlətin və cəmiyyətin iqtisadi maraqlarının müdafiəsi.
2) Dövlətin iqtisadi potensialının tam reallaşdırılması üçün şərait yaradılması
3) Sahibkarlıq subyektlərinin təsərrüfat fəaliyyətinin genişləndirilməsi üçün əlverişli şəraitin yaradılması.
4) Cəmiyyətin iqtisadi həyatında sabitliyin təmin edilməsi.
5) Dövlətin iqtisadi və digər sahələrdə müstəqil qərarlar qəbul etmək hüquqlarının müdafiəsi.
6) İqtisadiyyat sahəsində dövlət idarəçiliyi, modelləşdirmə və strateji planlaşdırma konsepsiyasının hazırlanması.
7) İqtisadiyyatın real sektorunda sabit artımın təmin edilməsi.
8) Qabaqcıl texnologiyaların tədqiqi və tətbiqi, innovativ inkişafın stimullaşdırılması, habelə bu sahədə normativ-hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə iqtisadi fəaliyyətin təşkili.
9) Davamlı iqtisadi inkişaf konsepsiyasının formalaşdırılması.

---

[12] Абалкин, Л.И. Экономическая безопасность России: угрозы и их отражение // Вопросы экономики. – 2014. № 1, – s.60.

10) Balanslaşdırılmış regional inkişafın təmin edilməsi.

11) Xarici iqtisadi əməkdaşlığın səmərəliliyinin artırılması və iqtisadiyyatın ixracyönümlü bölmələrinin rəqabətqabiliyyətli müsbət aspektlərinin reallaşdırılması.

12) İnsan potensialının inkişaf etdirilməsi və s.

Bir məsələyə də toxunmaq istərdik. Türkdilli dövlətlərlə xarici iqtisadi əlaqələrin təmin edilməsi və iqtisadi təhlükəsizliyin gücləndirilməsi baxımından əməkdaşlığın hərtərəfli genişləndirilməsi son illərdə kifayət qədər diqqət mərkəzindədir. Ümumiyyətlə, Böyük Qarabağ Zəfərindən sonra Azərbaycan Türkdilli dövlətlərin arasında əsas təşəbbüslərlə çıxış edən ölkə kimi diqqət mərkəzindədir. Eyni zamanda, Türk coğrafiyasının birləşdirilməsi və burada böyük bir iqtisadi məkanın – azad iqtisadi zonanın yaradılmasıdır. Türkdilli dövlətlərin inteqrasiyasının sürətləndirilməsini təmin edən məsələlər və hədəflər ortaya qoyulmuşdur. Hesab edirik ki, yaxın perspektivdə bu proseslər daha da sürətlənəcəkdir və nəzərə alsaq ki, yaxın illərdə Azərbaycanla onun ayrılmaz hissəsi olan Naxçıvanı birləşdirəcək quru yolun açılışı və burada Zəngəzur nəqliyyat logistika dəhlizinin yaradılması Azərbaycanın regional və dünya səviyyəsində əhəmiyyətini artırmaqla bərabər, həm də Türk dünyası coğrafiyasını birləşdirəcək və burada Türkdilli dövlətlər arasında XTƏ-lərin genişləndirilməsi üçün çox böyük fürsət və tarixi şanslar əldə ediləcəkdir. Eyni zamanda, Qərblə Şərq arasında ticarət dövriyyəsinin intensivləşdirilməsində və XTƏ-lərin diversfikasiyalaşdırılmasında tamamilə yeni reallıqlar və imkanlar yaranacaqdır. Çünki məhz bu nəqliyyat-logistika dəhlizi vasitəsilə yüklərin daşınması digər marşrutlara nisbətən 10-12 gün vaxta qənaət etməyə imkan verir, bu isə təkcə vaxt deyil, həm də nəqliyyat-logistika, sığortaya çəkilən xərclərin azalması deməkdir. Xərclərin azalması isə dünya bazarında rəqabətnin artırılmasına, qiymət siyasətinin təkmilləşdirilməsinə və onun daha dinamik olmasına əlavə imkanlar yaradır.

Dissertasiya işinin **“Müasir dövrdə Azərbaycanin iqtisadi təhlükəsizliyinin gücləndirilməsində xarici ticarət əlaqələrinin rolunun artirilmasi istiqamətləri”** adlı **üçüncü fəsildə** ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında xarici ticarət əlaqələrinin

iqtisadi-təşkilati və hüquqi tənzimlənməsi məsələləri, qlobal şəraitdə Azərbaycanın iqtisadi təhlükəsizliyinin artırılmasında xarici ticarət əlaqələrinin gücləndirilməsi Konsepsiyası, müasir dövrdə Azərbaycanın iqtisadi təhlükəsizliyinin modelləşdirilməsində xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmiş və müvafiq təkliflər hazırlanmışdır.

Hazırda əsas prioritet vəzifə ölkədə iqtisadi təhlükəsizliyin təminatında xarici ticarət əlaqələrinin gücləndirilməsi Konsepsiyasının hazırlanmasıdır. Bu konsepsiya ilə XTƏ-lərin inkişafı üçün əsas qoyulur. Konsepsiyada ölkənin iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri və prioritet hədəfləri yer almışdır (şəkil 2).

Hazırda ölkənin XTƏ-lərinin inkişaf konsepsiyası ixracyönümlü və idxalı əvəz edən modellər əsasında mərhələli inkişaf üçün ilkin şərtlərin yaradılmasına əsaslanmalıdır. Bunun nəticəsi XTƏ-lərin səmərəliliyinin yüksəldilməsi və ölkədə intensiv iqtisadi artıma nail olunması olmalıdır. Ölkənin ixrac potensialının artırılması xarici iqtisadi əməkdaşlığın səmərəliliyinin artırılması və iqtisadiyyatın ixracyönümlü sahələrinin rəqabət üstünlüklərinin reallaşdırılması əsasında daha da intensivləşdirilməsi hesabına mümkün olar.

Qlobal çağırışlar və müasir reallıqlar nəzərə alınmaqla, ölkəmizin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi və daha etibarlı şəkildə təmin edilməsi baxımından xarici ticarət əlaqələrinin maksimum təkmilləşdirilməsi və səmərəliliyinin artırılması istiqamətlərini ümumiləşdirmişik:

– İlk növbədə, işğaldan azad olunmuş ərazilərin bərpa olunması, iqtisadiyyat quruculuğunun təmin edilməsi perspektivləri də əsas götürülməklə, ölkəmizin iqtisadi təhlükəsizlik Konsepsiyasının təkmilləşdirilməsi və daha yaxşı olaraq, yenilənməsini vacib hesab edirik;

– Azərbaycanın milli iqtisadi maraqları və hədəfləri kontekstində, iqtisadi təhlükəsizlik prinsiplərinin və meyarlarının dövrün obyektiv reallıqları ilə uzlaşdırılması təmin olunmalıdır;

– Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində xarici ticarət əlaqələrinin rolu və funksiyaları konseptual olaraq yenidən baxılmalı və maksimum təkmilləşdirilməlidir;

**İqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri və prioritet hədəfləri üzrə Konsepsiyasının əsas elementləri**

**I. İqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi və xarici ticarət fəaliyyətinin gücləndirilməsi istiqamətləri**

- Ölkədə davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi
- İqtisadiyyatda rəqabət qabiliyyətinin artırılması tədbirlərinin görülməsi
- Xarici ticarət institutlarının inkişafı etdirilməsi
- İqtisadiyyatın texnoloji strukturunun yenilənməsi
- İxracyönlü istehsal sahələrinin inkişaf etdirilməsi
- Dövlətin iqtisadi sahədə rolunun səmərəliliyinin artırılması və dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi
- İdxaləvəzedici sahələrin inkişafının motivasiya edilməsi və yerli istehsalçılara daha fəal dəstəyin göstərilməsi
- Dövlətin xarici iqtisadi siyasətinin qlobal çağırışlara uyğun olaraq təkmilləşdirilməsi və s.

**II. İqtisadi təhlükəsizlik kontekstində xarici ticarət əlaqələrinin prioritet hədəfləri**

- Ölkənin rəqabətqabiliyyətinin Beynəlxalq Əmək Bölgüsü sistemində təsdiq edilməsi
- Ölkənin beynəlxalq səviyyədə nüfuzunun və imicinin formalaşdırılması
- Milli geoiqtisadi maraqların və strateji məqsədlərin prioritetliyinin təmin edilməsi
- Ölkənin spesifik xüsusiyyətlərinin (daxili amillər), habelə dünya iqtisadiyyatının inkişafının ümumi qanunauyğunluqlarının və meyillərinin (xarici amillər) nəzərə alınması
- Dünya bazarlarına daha çox milli brendlərin çıxarılması və əmtəə bazarlarının mənimsənməsi
- Daha çox valyuta resurslarının cəlb olunması
- Dünya səviyyəsində yüksək texnologiyalara çıxışın əldə olunması və analoji texnologiyaların transferi imkanlarının formalaşdırılması
- Dünya dövlətləri və ölkə birlikləri ilə qarşılıqlı iqtisadi maraq doğuran əlaqələrin yaradılması və inkişaf etdirilməsi və s.

**Şəkil 2. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri və prioritet hədəfləri üzrə Konsepsiyasının əsas elementləri**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

– Xarici ticarət əlaqələrinin coğrafiyasının genişləndirilməsindən çox, onun keyfiyyət və kəmiyyət göstəricilərinin iqtisadi səmərəlilik və iqtisadi təhlükəsizlik kontekstində baxılması və qiymətləndirilməsi daha düzgün olardı;

– Azərbaycan iqtisadiyyatının neft-qaz amilindən asılılığı ildən-ilə azalmaqda davam etməsinə baxamayaraq, ixracın həcmində neft-qaz xammalının payı adekvat olaraq azalmır və hesab edirik ki, bu faktın yaxın və uzaq perspektivlər nəzərə alınmaqla, daha fundamental tədqiqinə və adekvat tədbirlərin görülməsinə ehtiyac vardır;

– Azərbaycanın bir sıra qeyri-neftqaz sənayesi sahələrinin, o cümlədən, kimya və neftkimya, metallurgiya və s. sahələrin əlavə istehsal zənciri üzrə daha geniş çeşiddə və iri həcmdə rəqabətqabiliyyətli, həm də ixracyönlü sənaye məhsullarının (o cümlədən, innovasiyalı məhsulların) istehsal edilməsi imkanları vardır və bu istiqamətlərdə məqsədli fəaliyyət proqramlarının, strategiyaların hazırlanmasına və həyata keçirilməsinə ehtiyac qalmaqdadır;

– Postkonflikt ərazilər nəzərə alınmaqla, ölkəmizin iqtisadi təhlükəsizliyinin gücləndirilməsində və müasir reallıqlar əsas götürülməklə modelləşdirilməsində xarici ticarət əlaqələrinin genişləndirilməsi və təkmilləşdirilməsi məqsədilə dünyanın müxtəlif ölkələrinin şirkət və firmaları, potensial investorları ilə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və intesivləşdirilməsi tədbirləri görülməli, ixtisaslaşdırılmış, o cümlədən, regional səviyyəli xarici ticarət fəaliyyəti ilə məşğul olan rəqabətqabiliyyətli müəssisələr şəbəkəsi yaradılmalı, müvafiq infrastruktur genişləndirilməli, idxal-ixrac əməliyyatlarının səmərəliliyinin artırılması istiqamətində davamlı və təsirli tədbirlər görülməlidir və s.

**Dissertasiyanın "Nəticə" bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr verilmişdir:**

1. Bizə görə tətbiqi məsələlərin həlli zamanı nəzəriyyənin seçimi həm də xarici ticarət münasibətlərinin iştirakçılarının qarşılaşdıqları konkret məqsədlərlə müəyyənləşdirilir, bu halda və ya digər nəzəriyyənin tətbiqi, ilk öncə, ölkənin beynəlxalq aləmdə fəaliyyət istiqamətlərinin və mexanizmlərinin optimallaşdırılması iqtisadi təhlükəsizliyin təmin edilməsinin gücləndirilməsi vəzifəsini qarşıya qoyur və burada əsas prioritet vəzifələrdən biri də həmin proseslərdə xarici ticarət əlaqələrinin rolunun artırılmasıdır.

2. Hazırkı dövrdə iqtisadi təhlükəsizliyinin gücləndirilməsi

məsələləri əvvəlki illərlə müqayisədə daha çox aktualdır. Bu yanaşma dövlət müstəqilliyinin qorunub saxlanmasına təminat verən strateji amillərdəndir. İqtisadi təhlükəsizliyin təmin edilməsi ölkənin sosial-iqtisadi inkişafının reallaşdırılmasında və vətəndaşların rifahının yüksəlməsində önəmli əhəmiyyət kəsb edir. Qeyd olunanlar baxımından iqtisadi təhlükəsizliyinin təmin edilməsində xarici ticarət əlaqələrinin təkmilləşdirilməsində və genişləndirilməsində dövlət siyasəti və dövlət dəstəyi mexanizmləri kompleks və sistemli xarakter daşımalıdır.

3. Fikrimizcə, obyektiv reallıqlar əsas götürülməklə ölkədə çatışmayan və xüsusilə sənaye sektorunda tələbat olan məhsullara idxal rüsumlarının məbləğinin azaldılması daha çox səmərə verə bilər. Bundan əlavə, müəyyən kateqoriyalı malların idxalı zamanı qoruyucu rüsumları deyil, ölkə bazarına çıxış üçün təsdiq edilmiş standart tələblərin siyahısının tətbiq edilməsi faydalıdır. Bu da öz növbəsində yerli istehsalçıların rəqabət qabiliyyətini artırmaq istiqamətində əlavə tədbirlərin görülməsinə daha əsaslı motivasiyalar verəcəkdir.

4. Azərbaycanın XTƏ-lərinin inkişafı informasiya təhlükəsizliyinin təmin edilməsi mexanizmlərindən əhəmiyyətli səviyyədə asılıdır. Belə ki, informasiya təhlükəsizliyinin təmin edilməsinin iqtisadi üsullarına bunun üçün proqramların hazırlanması və onların maliyyələşdirilməsi qaydasının müəyyənləşdirilməsi və informasiyanın mühafizəsinin hüquqi və təşkilati-texniki üsullarının reallaşdırılması ilə bağlı maliyyələşdirmə sisteminin təkmilləşdirilməsi, fiziki və hüquqi şəxslərin informasiya risklərinin sığortalanması sistemi daxildir.

5. Azərbaycanın üçün dünya ölkələri ilə XTƏ-lərin genişləndirilməsi və dərinləşdirilməsi istiqamətlərində potensial imkanlar mövcuddur. Fikrimizcə, bu imkanların reallaşdırılması məqsədilə qeyd olunan istiqamətlərdə ardıcıl tədbirlərin görülməsi məqsədəuyğundur: 1) xarici ölkələrlə XTƏ-lərin səviyyəsinə təsir edən əsas amillərin müəyyənləşdirilməsi və onlardan istifadənin yaxşılaşdırılması mexanizmləri həyata keçirilməlidir; 2) xarici ölkələrlə XTƏ-lərin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi və bu sahələrdə belə əlaqələrin inkişafının təmin edilməlidir.

6. İqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından, Azərbaycanın XTƏ-lərinin məzmununu və əsas istiqamətlərini ifadə

edən istənilən aspekt ölkənin gələcək inkişafı baxımından fəaliyyət proqramının tərkib hissəsinə çevrilməlidir. Bununla bərabər, ölkəmizin XTƏ-ləri qurularkən daha səmərəli və faydalı olan iqtisadi əlaqələrin formalaşdırılmasına üstünlük verilməli və iqtisadi təhlükəsizlik meyarları ciddi şəkildə nəzərə alınmalıdır.

7. Azərbaycanın xarici XTƏ-lərinin iqtisadi təhlükəsizlik baxımından inkişaf etdirilməsindən ötrü Türkdilli dövlətlərlə iqtisadi inteqrasiyanın inkişaf etdirilməsi dövrün tələbidir və strateji əhəmiyyət daşıyır, bu məqsədlə bir sıra tədbirlərin davamlı və səmərəli olaraq həyata keçirilməsi zəruridir: 1) hazırda layihələrin icrasına başlanılmış strateji hədəflər nəzərə alınmaqla, Türkdilli dövlətlər arasında nəqliyyat-logistika kommunikasiyaları inkişaf etdirilməlidir; 2) xüsusi önəm daşıyan nəqliyyat problemlərinin əlaqələndirilməsi üçün müvafiq təşkilatın yaradılması məqsədəuyğundur; 3) XTƏ-lərinin inkişafı üçün birgə və xüsusilə sərhədyanı ərazilərdə azad ticarət zonalarının yaradılması səmərə verə bilər; 4) elmi və istehsal sferasına inteqrasiya, elmin bütün sahələri üzrə birgə tədqiqat işlərinin aparılması vacibdir; 5) Türkdilli dövlətlərin investorları üçün güzəştli şərtlərin müəyyənləşdirilməsi və tətbiqi gecikdirilmədən həll olunmalıdır; 6) Türk coğrafiyasının birləşdirəcək Zəngəzur qlobal nəqliyyat-logistika dəhlizinin açılmasında Türkdilli dövlətlərin birgə səyləri daha da gücləndirilməlidir.

8. Ölkənin iqtisadi təhlükəsizliyinin modelləşdirilməsində və təmin edilməsində XTƏ-lərin təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmişik: – beynəlxalq işgüzar əlaqələrin dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilməsi və yerli məhsulların xarici bazarlara çıxışının genişləndirilməsi təmin olunmalıdır; – emal sənayesi və xidmətlərin qlobal rəqabət qabiliyyətinə nail olmaq yolu ilə ixracın dəstəklənməsi və inkişafı sürətləndirilməlidir; – xarici texnologiya və investisiyaların cəlb edilməsinin stimullaşdırılması vacibdir; – xarici malların alınmasının rasionallaşdırılması, dövlətin özündə analoqu olmayan innovativ məhsul və xidmətlərin təşkili tədbirləri görülməlidir; – aparılan gömrük islahatları daha da dərinləşdirilməli və iqtisadi gömrük rejimlərinin təkmilləşdirilməsinə ehtiyac yaranmışdır; – ölkənin nəqliyyat sferasında tranzitivlik amilindən daha geniş istifadə edilməsi təmin olunmalıdır; – XTƏ-lərin

genişləndirilməsi və onların səmərəliliyinin artırılmasından ötrü klaster mexanizmindən istifadənin stimullaşdırılması və ölkə iqtisadiyyatının texnologiya idxalından asılılığının tədricən aradan qaldırılmasına zərurət vardır; – XTƏ-lərdə rəqəmsal texnologiyalardan istifadənin intensivləşdirilməsi və ölkədə strateji əhəmiyyətli istehsal müəssisələri şəbəkəsinin genişləndirilməsi tələb olunur; – strateji ixracyönlü məhsullar istehsal edən mövcud müəssisələrin rəqabət üstünlüklərinin gücləndirilməsi xüsusi diqqət mərkəzində saxlanılmalıdır; – ölkənin iqtisadi təhlükəsizliyinin gücləndirilməsində yeni imkanların formalaşdırılması məqsədilə, işğaldan azad olunmuş ərazilərdəki resurslardan bəhrələnməkdə XTƏ-lərin rolundan məhsuldar istifadə edilməsi faydalı ola bilər.

9. Covid-19 pandemiyasının mənfi təsirləri və torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı yeni reallıqlar əsas götürülməklə, "2026-2030-cu illərdə Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin olunmasında xarici ticarət əlaqələrinin rolunun artırılmasına dair Dövlət Proqramı"nın hazırlanması və həyata keçirilməsini vacib hesab edirik. Belə bir məqsədli dövlət proqramının reallaşdırılması nəticəsində ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün yeni potensial formalaşdırılacaq və hazırkı XTƏ-lərin daha da genişləndirilməsi, xüsusilə işğaldan azad olunmuş ərazilərin resursları hesabına bu əlaqələrin şaxələndirilməsi, yeni milli brendlərin yaradılması və dünya bazarlarına çıxarılması, həmçinin daxili tələbatın bir çox seqmentləri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı mümkün olacaq və idxaləvəzedici sahələrin inkişaf etdirilməsinə əlavə stimullar yaranacaqdır və s.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə dərc edilmişdir:**

1. Важнейшие аспекты внешнеторговых связей при моделировании экономической безопасности Азербайджана // – Москва: Материалы Международной научно-практической конференции "Мировая Глобализация: фундаментальные и прикладные аспекты", – 2023, 28 декабря, – стр. 109-118.

2. İqtisadi təhlükəsizliyin təminatında xarici ticarət əlaqələrinin nəzəri aspektləri. //–Bakı: Qərbi Kaspi jurnalı, –2023, № 04. – s.138-146.

3. Xarici ticarət əlaqələrinin genişləndirilməsi və ölkənin iqtisadi təhlükəsizlik sistemində rolunun artırılması // – Bakı: “Audit” jurnalı, – 2023, №03 (41). – s. 85-96.

4. Ölkənin xarici ticarət əlaqələrinin inkişafında və iqtisadi təhlükəsizliyinin təminatında gömrük orqanlarının rolunun qiymətləndirilməsi // – Bakı: İqtisadi artım və ictimai rifah jurnalı, 2023, № 03. – s. 35-43.

5. Azərbaycanın xarici ticarət əlaqələrinin mövcud vəziyyəti. // – Bakı: Tikintinin iqtisadiyyatı və menecment jurnalı, – 2024. № 01, – s. 411-417.

6. Перспективы повышение эффективности внешнеторговых связей в укреплении экономической безопасности страны. // Материалы II МНПК “Трансформация Российской науки в эпоху Информационного общества”, 2024 – стр. 45-54.

7. İqtisadi təhlükəsizliyin gücləndirilməsində xarici ticarət əlaqələrinin səmərəli təşkili üzrə beynəlxalq təcrübə // – Bakı: “Geostrategiya” jurnalı, – 2024, № 01. – s. 123-127.

8. Пути совершенствования внешнеторговых связей в повышении экономической безопасности Азербайджана в контексте новых вызовов // – Брюссель, Бельгия: Материалы IV Международная научно-практическая конференция Science in the environment of rapid changes. 2024, 6-8 апреля (№195). – стр. 74-81.

9. Актуальные вопросы совершенствование внешнеторговых связей в усилении экономической безопасности Азербайджана // – Москва: Журнал “Финансовая экономика”, 2024.№01, –стр.251-256.

10. İqtisadi təhlükəsizliyin təminatında xarici ticarət əlaqələrinin rolu // – Bakı: Gənc tədqiqatçıların VII respublika elmi konfransı. Azərbaycan Universiteti, – 2024.

Dissertasiyanın müdafiəsi 29 iyun 2026-cı il tarixdə, saat $14^{00}$-da Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən BFD 2.46 Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nərimanov ray., Nəcəf Nərimanov küç., 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.05.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 46922 işarə

Tiraj: 100